## Korifey sənətkarlarımız



*...Yaşasaydı 65 yaşı olacaqdı. Qəlbi qurub-yaratmaq eşqilə döyünən, sənətinə, elinə, torpağına son dərəcə vurğun bir insan üçün 65 yaş nədir ki?! Amma çox təəssüf ki, o nəinki 65, heç 50 il də yaşamadı. Ədalət yolunda, xalqı uğrunda şəhid oldu...*

*Biz Hamlet Xanızadəni bir-birindən maraqlı rollarından, nəfəs verdiyi canlı obrazlardan tanıyırdıq.*

*1941-ci il iyunun 5-də – Böyük Vətən Müharibəsindən 17 gün qabaq anadan olmuşdu. Müharibənin ağrı-acılarını yaşayanlar üçün bunun nə demək olduğunu söyləməyə yəqin ki, ehtiyac yoxdur. Bütün çətinliklərə baxmayaraq Hamlet boya-başa çatacaq, könül verdiyi peşəyə yiyələnəcək, Azərbaycan Dövlət İncəsənət İnstitutunu (ADMİU) bitirəcəkdi.*

# Ömür paylananda

O vaxt onun 24 yaşı vardı. Aktyor kimi Azərbaycan Dövlət Dram Teatrında bir il də əvvəl, 23 yaşından – hələ tələbə ikən çalışmağa başlamışdı.

Burada necə böyük sənətkarlarla qarşılaşmış, onlara tərəf-müqabili olmuşdu. Şahidi olanlar bilir. Bilməyənlər isə Hamlet Xanızadənin parlaq istedadını yəqin etmək üçün onun çəkildiyi «Yeddi oğul istərəm», «Axırıncı aşırım», «Arxadan vurulan zərbə», «Babək», «Qızıl uçurum», «O biri gün gecə yarısı» və s. filmlərə baxmalı, oynadığı Həsən Səbbah (H.Cavid – «Xəyyam»), İblis (H.Cavid – «İblis»), Qacar (S.Vurğun – «Vaqif»), Molla Abbas (C. Məmmədquluzadə – «Dəli yığıncağı»), Nizami (N.Həsənzadə – «Atabəylər»), doktor (N.Hikmət – «Şöhrət və ya unudulan adam»), Akor (A.Saqareli – «Xanuma»), Qlaqolev (N.Poqodin – «Kreml saatı»), Vurm (F.Şiller – «Məkr və məhəbbət »), Antonino (V.Şekspir – «Fırtına») və başqa rollarla bağlı 1965-1989-cu illərdə mətbuatda dərc edilən məqalələrlə tanış olmalıdırlar.

Amma görkəmli sənətkarımız Hamlet Xanızadənin böyüklüyünü duymaq üçün bu da azdır. Odur ki, həyatına dair məlumatınızın zənginləşdirilməsinə ehtiyac var. Buyurun, bizi dinləyin. Sözü gözəl aktyorumuzun qızı Aygün xanıma veririk:

- Atam Bakıda dünyaya gəlmişdi. Valideynləri əslən Bakının Şağan kəndindəndirlər. Babam məhkəmə – tibb ekspertizasında işləyirdi. Çox istəyirmiş ki, Hamlet də tibb sahəsində çalışsın. Atam evin böyük övladıydı. Orta məktəbi bitirəndə babam onun sənədlərini Tibb İnstitutuna verir. Valideynlərinin istəyini nəzərə alaraq atam Tibb İnstitutuna daxil olsa da, ürəyi İncəsənət İnstitutunda qalır. Təsadüf elə gətirir ki, həmin il Tibb İnstitutunda təhsil almaq üçün Çindən Bakıya çoxlu tələbə gəlir. Ona görə də qəbul imtahanlarından «3» almış abituriyentlər çinlilərlə əvəzlənir. Atam eşidəndə ki, ixtisara düşənlər arasındadır, sevincinin həddi-hüdudu olmur. Sənədlərini sevincək götürəndə ona deyirlər:

- Siz nəyə sevinirsiniz? Axı çinlilər gəlməsəydilər, tələbə olacaqdınız...

- Allah çinlilərin ölənlərinə qəni-qəni rəhmət eləsin! Onsuz da həkim olmaq istəmirdim, amma valideynlərimin arzusuna qarşı çıxa da bilmirdim. Məni onlar xilas elədilər, - deyə atam izah edir.

Bu qəribə oğlanın hərəkətlərinə təəccüb edənlər deyir:

- Allah arzuna çatdırsın...

Beləliklə, sənədlərini verir arzusunda olduğu İncəsənət institutuna və qəbul olunur.

Aktyorluq sənətinin vurğunu idi. Bu sevgidən idi ki, oynadığı rollara görə layiq olduğu, amma ala bilmədiyi mükafatlar onu maraqlandırmırdı. Atamın ən böyük mükafatı tamaşaçı alqışı idi.

*- Deyilənə görə atanızın çox ağır xasiyyəti olub...*

- Yox, yalan söhbətdir. Amma bu şayiə boşdan da yaranmayıb. Belə ki, o təbiətən ciddi adam idi. Bunun-la belə ürəyi yuxa kimiydi. Ailə qurduqdan sonra anama deyərmişlər ki, Hamlet çox ciddi adamdır, onunla necə yola gedirsən, çətin deyil ki?! Anam da onların bu sualından təəccüblənərmiş: «Necə yəni, ciddidir? Hamletdən həlimxasiyyətli adam var?..» Bəlkə də zahirən çox ciddi adam təsiri bağışlayırdı. Əslində isə incəqəlbli insandı. Ciddilik onun zahiri görünüşündəy-

di.

*-Tibb İnstitutuna babanızın təkidilə sənəd verən atanız yəqin ki, ailə quranda da onun sözünü dinləyib?!*

- Atamla-anamın evlənməsinin qəribə tarixçəsi olub. Anam Mirzə Fətəli küçəsində yaşayırmış, pəncərələri də aktyor Kamal Xudaverdiyevin yaşadığı mənzillə üzbəüz imiş. Kamal əmi ilə atam dost olduqlarından tez-tez görüşürmüşlər. Bir dəfə Kamal əmigildə yığışarkən atam pəncərənin qarşısına keçib papiros çəkirmiş, bax, elə onda təsadüfən anamı görür. Bir müddət sonra tanış olub ailə qururlar. Qəribə burasındadır ki, onların valideynləri uzun müddət eyni xəstəxanada çalışsalar da, qohum olacaqları ağıllarına belə gəlmirmiş. Atam deyəndə ki, filankəsin qızını istəyirəm, nənəm münasibətini belə açıqlayır:

- Şükür sənə, İlahi, gəlinim nəcabətli nəsildən olacaq... Tamilla xanımı çoxdan tanıyıram, 30 ildir, bir yerdə işləyirik. Yaxşı ailədir, onlarla qohum olmağımıza şadam...

Anam Moskvada oxuduğundan toydan sonra təhsilini davam etdirməyə gedir. Hərdən gənclik illərini xatırlayarkən anam danışır ki, Hamlet tamaşa qurtarandan sonra zəng edirdi, söhbətləşirdik. Üstündən 4-5 saat keçmiş qapı döyülürdü. Ev sahibəsi deyirdi ki, bəs gələn həyat yoldaşınızdır. Əvvəlcə o bunu zarafat saysa da, sonra vərdiş halı aldığından ərinin qəfil gəlişlərindən təəccüblənmir. Atam istirahət günlərini anamla birlikdə keçirər, əgər əlavə vaxtı varsa, ertəsi gün şəhəri gəzib-dolaşar, dincələr, sonra yenidən Bakıya yola düşərmiş. Həftəsonu tamaşa qurtarandan sonra yenə hava limanına gəlib bilet alar, 3 saata Moskvaya çatarmış. Gəlişi həmişə qəfil olarmış. Anamla eyni həyətdə tələbə yoldaşları da kirədə yaşayırmış. Qızlar həsədlə deyərmişlər:

- Nailə xanım, nə yaxşı yoldaşınız var, ayda 3-4 dəfə gəlir. Görün Sizi nə çox sevir...

... Mən gec doğulmuşam; özü də fevral ayının 23-də. Sovet dövründə həmin gün kişilərin bayramı kimi qeyd olunardı.

Doğulmağım həmin günə təsadüf etdiyindən anam zarafatla atama deyir:

- Hamlet, daha sənə hədiyyə-filan almayacağam. Hədiyyəni ömürlük verdim...

Evimiz olmadığından bir müddət kirədə qalırlar. Atam mənzil növbəsinə dursa da, nə vaxt order alacağı bəlli deyilmiş. Teatrın 100 illiyi ilə əlaqədar ona ev verməliydilər. Anam danışır ki, bir gün bağdan gələndə İnqilab küçəsindən keçirdik. Hamlet oradakı binaları göstərib deyir ki, bu evlərdən birini sənə hədiyyə alacağam. O vaxtlar gah atamın, gah da anamın valideynlərigildə yaşayırmışlar. 1980-ci il oktyabrın 15-də bütün ailə süfrə açıb atamı gözləyirmiş, o isə gəlib çıxmaq bilmirmiş. Ora-bura zəng vursalar da, gördüm deyən olmur. Handan-hana gəlib çıxır. Özü də sevincindən az qala qanad açırmış. Hamı təəccüblə nə baş verdiyini öyrənmək istəyir. O, anama xitabən deyir:

- Nailə, yadındadır, qızımızı mənə ömürlük hədiyyə etdiyini deyirdin? İndi mən də bu evi sənə əbədi bağışlayıram...

Demə, teatrın 100 illiyi ilə bağlı rəhmətlik Heydər Əliyev akytorlara mənzil ayırıbmış. Ramiz Məlikov, Amalya Pənahova, teatrın elektriki, katibəsi, hətta süpürgəçisi də bu binada ev almışdılar. Bizim payımıza 3 otaqlı mənzil düşmüşdü. Binamızın da, mənzilimizin də nömrəsi 116 idi. Özü də ortada qərar tutmuşduq: 4 mərtəbə bizdən yuxarıda, 4-ü aşağıda.

*- Sənət adamları ilə ailə quranların məhəbbəti gərək daha güclü olsun. Əks təqdirdə...*

- Elədir. Valideynlərimdə məhəbbət qarşılıqlı idi. Bunu hiss etməmək mümkün deyildi. Atam çox qayğıkeş idi. İstirahətimiz üçün daha nələr etməzdi.

Nazımızı çəksə də, ərköyünlük etməyimizə imkan verməzdi. Dərslərimizi yaxşı oxumağa çalışırdıq ki, deməsinlər atalarına görə qiymət alırlar. Müəllimlər valideyn iclaslarında bizi tərifləyəndə uçmağa qanadı çatmazdı. Əlbəttə, bayramlarda gül, şar, gəlincik, müxtəlif oyuncaqlar almağı da çox sevirdi...

*- Nə qədər qəribə də olsa atanız sağlığında layiq olduğu qiyməti almayıb...*

- Elədir. Bir sənətkar kimi bunun atama nə dərəcədə təsir göstərdiyini deyə bilmərəm. Söhbət düşəndə acı-acı gülümsünərdi ki, mən Şerlok Holms kimiyəm, tanıyan tanıyır, tanımayan da sonra tanıyar, addır da, vermirlər, heç verməsinlər. Amma hiss edirdik ki, gənc akytorlara fəxri adlar veriləndə sarsılır. Nəhayət, əməkdar artist adı verdilər, amma atam bu hadisəni çox soyuqqanlılıqla qarşıladı, çünki incik idi...

Xasiyyətcə mülayim olsa da, daxilən əsəbiydi. Anam da çalışırdı ki, onun sinirlənməsinə yol verməsin. Evdi də, sözsüz-söhbətsiz ötüşmür. Amma çox vaxt işdən evə acıqlı dönərdi. Bir dəfə «İnturist»də qonaqlıqdan çıxır, görür ki, bir neçə oğlan 3-4 qızın dalınca düşüb. Milis işçisi də dayanıb baxır. Atam əsəbiləşib deyir:

- Nəyə baxırsan? Görmürsən, azərbaycanlı qızlara sataşırlar?

Bax, belə əsəbilikləri var idi. Özü də bunları anama danışmağı çox xoşlayırdı. Bir də görürdün, nəyisə coşğunluqla danışır, anam isə onu sakitləşdirməyə çalışır:



- Ay Hamlet, küçədə acıqlanıb gəlmisən, indi də mənə danışa-danışa əsəbiləşirsən. Axı nəyinə lazımdır bu qədər gərginlik keçirməyin? A kişi, küçədə oldu, qurtardı getdi də, bunu bir də evdə niyə danışırsan?

- Ona görə deyirəm ki, mən olmayanda qızlara da, özünə də diqqət yetirəsən, onlara əsl azərbaycanlı gənclərinə xas tərbiyə verəsən...

Hər şeyin dərininə getməyi xoşlayırdı. Ürəyinə salırdı.

*- Atanızın xarakterində diqqət çəkən daha hansı cəhət vardı?*

- Mütaliə etməyi o qədər sevirdi ki, onun bu həvəsinə mat qalardıq. Xüsusilə Yanvar hadisələri baş verəndə bütün mətbuatı oxuyur, sonra altından xətt çəkdiyi cümlələrə baxmağı bizə də tövsiyə edirdi...

*- Sonra...*

- Yaxşı yeməklərin hamısını xoşlayardı. Düşbərə, qutab, plov... Yeməyin təmiz hazırlanmasına diqqət edirdi. Yoldaşları ilə ziyafətlərə gedər, sonra isə onlara deyərdi ki, indi yollanırıq bizə, yoldaşım yaxşı piroşki bişirib. Gələrdilər. Gecəyarısı olduğundan anam əsəbiləşərdi:

- Bu vaxt bunları niyə götürüb gəlmisən?

- Sən mənim canım, daha gəliblər, bir yaxşı süfrə düzəlt.

Doğrudur, anam onları yüksək səviyyədə qəbul edirdi, amma daxilən əsəbiləşirdi. Buna baxmayaraq, gözəl süfrə açırdı ki, atamın başı uca olsun. Axı o, evinin səliqəsi ilə fəxr edirdi.

*- Atanızla bağlı daha nə deyərdiniz?*

- Nağıl danışmağı çox xoşlayardı, xüsusilə kiçik bacıma. Axır zamanlarda isə ssenarilər oxuyur, yaxud müəyyən kitabları verib deyirdi:

- Oxuyun, sonra çıxardığınız nəticəni mənə danışın...

... Bir şkafı var idi, burada ancaq özünəməxsus əşyaları saxlayırdı. Teatrdan kostyumunu, qrim ləvazimatını gətirər, həmin şkafa qoyardı. İşə gedən kimi tez şkafı açıb paltarları tökürdük. Bir dəfə bacım Xumar atamın «İblis» tamaşasında geydiyi xalatı əyninə keçirmişdi. Amma H.Cavidin Osmanlı türkcəsində yazdığı sözləri tələffüz etməkdə çətinlik çəkirdi. Təsadüfən bu vaxt atam gəlib çıxdı. Fikirləşdik ki, sevinəcək. Tamam əksinə oldu. Səbəb bizi aktyor deyil, həkim kimi görməsilə bağlı idi. Qəribədir, deyilmi? Bir vaxt valideynləri onu həkim kimi görməyi arzulayırdılar, indi də o bizi...

Onun güclü sənətkar olduğunu bilməyən yox idi. Bəlkə də uşaq olduğumdan bunu o vaxtlar hiss etməmişəm. Amma tamaşa və filmlərdə oynadığı rollara yenidən baxanda hiss edirəm ki, atam həqiqətən çox güclü sənətkar olub. Onun səsi kimi ikinci səs təsəvvür etmirəm.

... O vaxt uşaq idik, atamın sevincini duysaq da, mükafatın nə qədər əhəmiyyətli olduğunu hələ dərk etmirdik. Amma görürdük ki, evimizə nə qədər gül gəlirdi, nə qədər təbrik edirdilər. Evimiz gül dükanını xatırladırdı. Sadəcə, sevincini başa düşürdük, hiss edirdik...

*- Ananız atanızı qısqanmırdı ki?!*

- Etiraf etməsə də düşünürəm ki, qısqanırdı. Hər dəfə filmlərinin premyerası keçiriləndə tamaşa salonunda cərgələrdən üçü ancaq qohum-qardaş, qonşu, tanış-bilişlərdən ibarət olurdu. Kimə dəvətnamə verməyə əli çatmırdısa, deyirdi: tapşırmışam, kassadan alın.

«Qılınc və qələm» tamaşasında belə bir epizod var. Ssenariyə görə Nizami rolunu oynayan atam Qətibəni (Zərnigar Ağakişiyeva) qucaqlamalı olur. Bu vaxt qohumlarımızdan kimsə arxadan anamı dümsükləyir ki, ay qız, sən bunu soyuqqanlılıqla necə seyr edirsən? Anam da cavab verir ki, Qətibəni qucaqlayan Hamlet deyil – başqa adamdır, tanımıram. Evə gələndə isə «istintaq» qurulurdu:

- Hamlet, zarafat-zarafat, Zərnigarı niyə qucaqlamışdın?

O da söz altında qalmırdı:

- Ərə gedəndə bilmirdin kimə gedirsən? Mən pul qazanıram, sənsə məni danlayırsan...

*- Teatra sizi necə, aparırdımı?*

- Əlbəttə. Hələ uşaq vaxtımdan. Onda balaca idim. Bir dəfə teatra getmişdik, «Dəli yığıncagı» tamaşasına baxırdıq. Gördüm, dəlilər atamı döyürlər. Bu yerdə özümü saxlaya bilməyib başladım bərkdən ağlamağa. Bütün zal üzünü mənə tərəf çevirmişdi. Fasilə zamanı atam saçlarımı tumarlayıb dedi ki, qızım, bu tamaşadır, ağlama.

Ümumiyyətlə, o uşaqları çox sevirdi. Bir dəfə ad günümdə bütün şagird yoldaşlarımı evə dəvət etdim. Təsadüfdən, ancaq sinfin oğlanları gəldilər – özü də 15 nəfər. Oğlanları görəndə rəngim saraldı ki, atam gəlib soruşacaq: bu oğlanları hardan yığmısan, qız rəfiqən yoxdur? Elə bu zaman atam gəlib çıxdı. Qoşuldu bunlara. Yedilər, içdilər, şənləndilər, sanki özü də yeniyetmə idi. Məclisimiz elə şən keçdi ki, heç hiss olunmadı burada qız var, ya oğlan...

Bundan sonra uşaqlar həmişə soruşurdular ki, atan necədir? Əməlli-başlı dostlaşmışdılar. Rəhmətə gedəndə bütün uşaqlar bizə kömək elədilər.

*- Bilirəm, o günləri xatırlamaq Sizin üçün ağırdır. Sizə bu sualı vermək mənim üçün də çətindir. Amma söhbətimizi yekunlaşdırarkən soruşmağa məcburam. Atanızın ölümünü necə xatırlayırsınız?*

- 1990-cı ilin Yanvar hadisələri zamanı şəhərdə güllələbaran başlayanda atam qonşumuz Gülcamal müəllimlə evdə nərd oynayırdı. Kimsə zəng vurdu ki, şəhərdə qarışıqlıqdır. Çıxdıq eyvana, kazarmadan gələn işıqları, güllələri gördük. Birdən sürətlə gələn bir maşın kimisə vurub keçdi. Atam çox pis oldu. Tez aşağı düşdü. Vurulmuş oğlana kömək etməyə başladı.

... 20 Yanvar hadisələri ona çox pis təsir etmişdi. Güclü həyəcan, əsəb sarsıntıları keçirirdi... Həmin günlərdə televizoru açanda belə bərk əsəbiləşirdi. Deyirdi ki, nəyə baxırsınız, görmürsünüz, millətin qanı necə tökülür? Bütün günü xaricdən yayımlanan radiostansiyalara qulaq asırdı, qəzetləri oxuyurdu. Meydanlarda olan etiraz mitinqlərinin birini belə buraxmırdı. Hiss edirdik ki, bütün içi əsir. Deyirdik ki, çox fikir eləmə, əlimizdən nə gəlir? Cavab verirdi ki, nə danışırsınız, millətimin nahaqdan qanı tökülür, bu dərdə dözmək olar? O qədər fikir edirdi ki, gecələri sübhədək yata bilmirdi. Elə yəqin, bunun nəticəsində də beyninə qan sızdı. Səhər evdən çıxanda qan təzyiqi var idi. İşə gedib təzyiqini ölçdürür. Həkim onu təəccüblə süzüb deyir:

- Hamlet, təzyiqin çoz yüksəkdir – 250. Bu dəqiqə evə get...

- Nə danışırsınız, heç nə olmaz. Şəhidlər Xiyabanına getməliyəm...

Beləcə bir neçə dostu ilə gedir Şəhidlər Xiyabanına. Orda bərk ürəktutması olur. Hətta maşını idarə edə də bilmir. Yoldaşları onu evə çox ağır vəziyyətdə gətirdilər. «Təcili yardım» çağırdıq, bütün cəhdlərə baxmayaraq 7 saatdan sonra dünyasını dəyişdi.

Hadisələr başlayandan gündə neçə dəfə ağlayırdı. Qonşumuz professor Nahid müəllim atamı meydanda görübmüş – ölü daşıyanda. Özü də təkcə... Sübh açılmamış meydana üz tuturdu. Nə atılan güllələrdən çəkinirdi, nə rusun ağır texnikasından. Dönə-dönə deyirdik ki, ehtiyatlı ol, bizə yazığın gəlsin. Cavab verirdi ki, orada şəhid olanlardan heç nəyim artıq deyil. Evə stres içində gəlirdi. Dindirməyə ürək etmirdik. Baş verənləri həzm edə bilmirdi. O, güllə yarası almadan şəhid oldu. Özünü Vətən və xalqının müstəqilliyi yolunda şəhid elədi. Dünyasını dəyişən kimi bütün qəzetlər, mətbuat da belə yazdı. Məscid əhli evimizə tökülüşdü. Heç özümüz də gözləmirdik ki, ona bu qədər ehtiram göstərsinlər.

... Atamın rəhmətə getdiyini biləndə teatrın rəhbərliyi onu Fəxri Xiyabanda dəfn etmək məsələsini qaldırdı. Amma anam razı olmadı. Çünki atam özü istəyirmiş ki, Şağanda dəfn olunsun. Valideynlərini orada basdırmışdılar, biz də vəsiyyətinə əməl etdik... Hələ sağ olanda anama deyirmiş ki, işdir, mənə bir şey olsa, çalış müsəlman kimi dəfn eləsinlər, üzümü açıq qoymasınlar...

**Y. HİDAYƏTOĞLU**



*"Yeddi oğul istərəm" filmindən*